# İŞĞALDAN AZAD OLUNMUŞ FÜZULİ RAYONUNUN BİTKİ ÖRTÜYÜNÜN VƏZİYYƏTİNİN CİS TEXNOLOGİYASI VASİTƏSİLƏ ARAŞDIRILMASI

**Laləndə Fərəcova, Şərqiyyə Hüseynli, Rəsmiyyə Canməmmədova**

*AR Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu, Bakı*
*lalafar@mail.ru, shargiyyahuseynli@gmail.com*

Qarabağ zonası özünün flora və fauna müxtəlifliyinin zənginliyi, yeraltı və yerüstü sərvətləri, bərəkətli torpaqları, kəhriz və müalicəvi bulaqları, min bir dərdin dərmanı olan şəfalı suları ilə həmişə seçilmişdir. O cümlədən Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmiş qiymətli bitki və heyvan növləri, qoruq və yasaqlıqlar mövcud olmuş, mədəni bitkilərin Azərbaycan xalqı tərəfindən yaradılmış seleksiya nümunələri geniş şəkildə becərilmişdir. Lakin 30 illik işğal müddətində mənfur düşmənlərimiz Qarabağda təbiəti, ətraf mühiti məhv etməyi məqsədyönlü şəkildə həyata keçirmişlər. Onlar Qarabağda işğal və hərbi əməliyyatlar nəticəsində ekosid törətmiş, təbiəti məhv etmiş, əhalini qida mənbələrindən və başqa həyat əhəmiyyətli resurslardan məhrum etmişlər. İşğal altında olan ərazilərdə təbii ehtiyyatların istismarı bir sıra ekoloji problemlər yaratmışdır. Bununla da Qarabağın və ətraf regionların ekologiyasına çox böyük zərər dəymişdir. Tezisdə işğaldan azad olunmuş Füzuli rayonun bitki örtüyündə baş vermiş dəyişikliklər, torpaq və bitki örtüyündə gedən deqradasiya prosesləri öz əksini tapmışdır.

30 il işğal altında qalan torpaqlarımız Ali Baş Komandanımız rəhbərliyi və qüdrətli ordumuzun səyləri nəticəsində 44 günlük müharibədən sonra, 2020-ci ilin noyabrında işğaldan azad olundu. Bu gün torpaqlarımızda bərpa və yenidənqurma işləri gedir. İşğal altında olan ərazilərdə təbii ehtiyyatların istismarı bir sıra ekoloji problemlər yaratmışdır. Meşələrin qırılması və yandırılması, flora və faunanın məhvi, su ehtiyyatlarının çirkləndirilməsi, təbii yataqların talan olunması, ekoloji balansın pozulmasına gətirib çıxarmışdır. Bu aqressiyanın, ekosidin daha bir təzahürü torpaqların və bitki örtüyünün deqradasiyaya uğramasıdır.

İşğal olunmuş ərazilərdə bitki örtüyündə gedən dəyişikliklər, müharibədən əvvəl və sonrakı (Füzuli rayonunun timsalında) vəziyyət GİS texnologiyası vasitəsilə aşkarlanmışdır.

Füzuli rayonunun ümumi sahəsi 138610,1 hektar olmaqla müxtəlif təbii təsərrüfatlara ayrılır. Rayon ərazisi şimaldan Xocavənd və Ağcəbədi rayonları ilə, şimal-şərqdən və şərqdən Beyləqan rayonu ilə, cənubdan və cənub-şərqdən Araz çayı ilə, cənubdan Cəbrayıl rayonu ilə həmsərhəddir. Füzuli rayonu ərazisində, şaquli zonallıq qanunu bitki örtüyü, torpaq əmələ gətirən süxurlar, relyef, iqlim şəraitində olduğu kimi torpaq örtüyündə də aydın ifadə olunur. Rayon ərazisində əsasən bozqırlaşmış dağ-qəhvəyi, boz-qəhvəyi (şabalıdı), boz-qonur və boz-çəmən torpaq tipləri və yarımtipləri formalaşıb.

Füzuli rayonu ərazisində ətraf mühitə ekstremal təsir növü kimi qiymətləndirilən hərbi əməliyyatların yaratdığı dəyişikliklər birbaşa olmasa da, dolayısı yolla bitki örtüyü xəritəsinin təhlilindən alınan nəticələrlə təsdiq edilir.